# Azərbaycan dünyada sabitlik adası, inkişaf məkanıdır

## Terrorun, radikal ekstremizmin gizli yuvasına çevrilən Nardaranın ölkə reallıqlarına qaytarılması istiqamətində göstərilən səylər bir daha təsdiqləyir ki, hər bir bölgənin, kəndin, qəsəbənin inkişafı, insanların rahat, təhlükəsiz yaşayışının təminatı dövlət siyasətinin əsasını təşkil edir

**24 illik müstəqillik tarixinə malik olan Azərbaycan Avropa ilə Asiya arasında mədəni və siyasi körpü rolunu günbəgün möhkəmləndirir. "Bizim cəmiyyətdə multikulturalizm ənənələri dərin köklərə malikdir. Siyasi quruluşdan asılı olmayaraq, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və etnik azlıqların nümayəndələri hər zaman sülh və ləyaqət şəraitində yaşamışlar.**



Müstəqil olandan sonra Azərbaycan bu səbəbdən dünya multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir" söyləyən dövlətimizin başçısı İlham Əliyev bir reallığı da diqqətə çatdırır ki, bugünkü nailiyyətlər yalnız müstəqil olduğumuz illərdə insanlarımızın böyük uğur əldə edə, öz gələcəyini müəyyən edə, planlar qura və dünyadakı mövqeyini müəyyən etməklə böyük iqtisadi transformasiya və uğura nail ola bilməsini təsdiqləyir. Azərbaycanın 24 illik müstəqillik tarixinin qısa təhlili bu yolun hansı çətinliklərdən keçdiyini, nə kimi maneələrin ortaya çıxdığını bir daha açıqlayır.

Müstəqilliyimizin ilk illərində yaşanan durum yaddaşlardadır. Ölkədə özbaşınalıq, xaos, anarxiya, iqtisadi böhran hökm sürürdü. Bu faktı hər zaman xatırlatmağı özümüzə borc bilirik ki, Azərbaycan bütün dövrlərdə yerləşdiyi coğrafi məkana və malik olduğu təbii resurslara görə dünyanın diqqət və marağında olub. Lakin müstəqilliyimizin ilk illərində ölkədə ictimai-siyasi durumun gərginliyi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin tərəddüdlərinə səbəb olmuşdu. Xarici investorlar ölkə iqtisadiyyatına qoyacaqları vəsaitlərin təhlükəsizliyinə tam əmin deyildilər. Lakin 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə ölkədə sabitliyin yaradılması bu tərəddüdlərin aradan qaldırılmasını şərtləndirdi. Azərbaycan daxilində yaranmış sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan qaynaqlanaraq, 1994-cü ilin sentyabrında tarixə "Əsrin müqaviləsi" kimi daxil olan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Bu faktı da xüsusi qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdur. Bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdır. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanılmışdır. Məhz bunun sayəsində ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdır ki, bunun da əsasını müstəqil Azərbaycanın ilk Konstitusiyası təşkil edirdi. Hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolunu tutan Azərbaycanın hərtərəfli inkişafına xidmət edən qanunların qəbulu və onların icrası qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağa əsas yaradır. Son 12 ildə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın qarşısında yeni-yeni imkanlar açmaqla yanaşı, inkişaf modelinin beynəlxalq səviyyədə dəstəklənməsini şərtləndirir. Ən əsası Azərbaycan dünyada sabitlik adası, iqtisadi möcüzələr ölkəsi kimi tanınır. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Azərbaycanın inkişaf modeli bir çox ölkələr üçün cəlbedicidir və öyrənilməsinə xüsusi diqqət göstərilir. Azərbaycanın hərtərəfli inkişafını qarşıya mühüm vəzifə kimi qoyan Prezident İlham Əliyev bu məqsədə yüksək səviyyədə nail olmaq üçün regionların potensialından səmərəli istifadəni xüsusi olaraq qeyd etmişdir. Bu gün istər regionların, istərsə də Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqamlarının uğurlu icrası göz önündədir.

Təbii ki, bu uğurlarımıza qısa baxış səbəbsiz deyil. Hər bir hadisəni özlərinə sərf edən şəkildə şərh etməyə adətkar olan dağıdıcı ünsürlərin və onların tabeliyində olan mətbu orqanların Nardaran kəndində yaşananları da öz maraqlarına uyğun şərh etmələri diqqətdən yayınmır. Yenə də ənənələrinə uyğun olaraq günahkar kimi hakimiyyəti görürlər. Seçkilərə qatılmamağı, ölkənin inkişafını təhrif etməyi, Azərbaycanın maraqlarına zidd hər hansı addımı xoşniyyətlə qarşılamağı real müxalifətin spesifik xüsusiyyəti kimi təqdim edən və bu baxımdan da özünü "aparıcı qüvvə" kimi təqdim edən əli kərimlilərin Nardaran olayına yanaşmasına diqqət yetirsək, onların nə qədər cılız hisslərlə yaşadıqlarının, ən əsası vətəndaşlıq təəssübkeşliyindən nə qədər uzaq olduqlarının şahidi olarıq. Əli kərimlilərin ictimai fikri çaşdırmağa xidmət edən açıqlamalarında sanki hakimiyyətin bu hadisənin yaşanmasında maraqlı olduğu ələ and-aman edilir ki, reallığın içində olmayan, prosesləri ölkə xaricindən izləyən kəs elə düşünər ki, ölkəmizin taleyi, insanların yaşam tərzi hakimiyyəti düşündürmür, sanki durumun ağırlaşmasını gözləmək günün reallığıdır. Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramından Nardaranın kənarda qaldığını iddia edən Ə.Kərimli bu kimi əsassız fikirlərin kiməsə uğur, divident gətirmək iqtidarında olmadığının fərqindədir. Unutmayaq ki, ictimaiyyət reallığa dəyər verir, fərziyyələrə yox. Ə.Kərimli açıqlaması ilə açıq-aşkar terrora, təxribata üstünlük verdiyini, Azərbaycanda ictimai-siyasi gərginliyin yaranmasında nə qədər maraqlı olduğunu nümayiş etdirir. Taleh Bağırzadənin həbsi əli kərimlilər tərəfindən ürək ağrısı ilə qeyd edilir. Bu da başadüşüləndir. Görünür, xarici antiazərbaycan qüvvələrin cızdığı bu ssenarinin icrasında maliyyə dəstəyi alacaq, mükafatlandırılacaq ünsürlər sırasında Əli Kərimlinin də adı var. Hadisələrə ən böyük dəyəri zaman özü verir. Prosesin gedişini izləyək, son nəticəni gözləyək.

Reallıq budur ki, Nardaranda bir qrup insan qatı mühafizəkarlıq nümayiş etdirərək dövlətə və onun müvafiq strukturlarına meydan oxumağa cəhdlər göstərib. Dünyanın sivil prinsipləri ilə inkişaf edən Azərbaycanda uzun illərdir bu kəndin sakinləri dövlətin konstitusion quruluşunu, qanunlarını, ictimai həyat normalarını inkar etməklə özünəməxsus üsul-idarə modeli tətbiq ediblər. Vəziyyətin son dərəcə qəbuledilməz olduğunu göstərən amillərdən biri də kənddə yerli icra hakimiyyətinin və bələdiyyənin fəaliyyətinə imkan verilməməsi, hüquq mühafizə orqanlarının, digər dövlət qurumlarının yerli bölmələrinin yaradılmasına süni maneələrin yaradılmasıdır. Vəziyyətdən sui-istifadə edən bir sıra şəxslər kəndin sosial şəraitinin normal səviyyədə olmamasını bəhanə edərək hadisələrin səbəblərini bununla izah etməyə çalışırlar. Təbii olaraq bütün bunlar bir sıra mənfi xarakterli tendensiyaların formalaşmasına zəmin yaradıb. Etiraf etmək lazımdır ki, bu gün Nardaran narkomaniyanın və ondan törəyən qanunsuz əməllərin ən çox yayıldığı ərazi vahidlərindən birinə çevrilib. Kənddə narkomaniya əsas olmaqla bütün mənfi təzahürlər geniş vüsət alıb. Bu təfəkkür sahibləri Nardaranı sanki başqa bir dövlətin ərazisi kimi ölkə vətəndaşlarının üzünə bağlayıblar. Hətta kəndin bəzi separatçılara dəstək verən sakinləri Nardarana gedən insanları təhdid edir, onların həyatına təhlükə yaratmaqdan belə çəkinmirlər. Beləliklə, Nardaran müasir və inkişaf edən Azərbaycanın reallığına tamamilə zidd olan, müxtəlif ölkələrdəki İŞİD poliqonunu xatırladan bir məkana çevrilib. Bu səbəbdən də kənd həm də terrorun, radikal ekstremizmin gizli yuvasına dönüb. Təbii ki, bunu qəbul etmək və bununla barışmaq mümkün deyil. Azərbaycanın bütün yaşayış məntəqələri və onların sakinləri qanunlar qarşısında bərabər hüquqlara malikdirlər. Dövlət tərəfindən hər bir vətəndaşın hüquqları qorunur və təmin edilir. Sözsüz ki, Nardaran kəndində özlərini "səlahiyyət sahibi" hesab edənlərin dövlət orqanları ilə şərtli, ultimativ davranışına son qoyulmalı, Nardaran Azərbaycan reallığına qaytarılmalı, bu reallığı qəbul etməyənlərə qarşı isə sərt tədbirlər görülməlidir.

Qeyd etdiyimiz kimi, Azərbaycanda sosial, iqtisadi, demokratik inkişafın hansı səviyyədə olduğunu geniş şərh etməyə ehtiyac yoxdur. İqtisadi tərəqqi demokratikləşmə prosesini sürətləndirir. Bircə məqamı qeyd etmək kifayətdir ki, ölkəmizin demokratiya təcrübəsi digər ölkələrə nümunədir və bu, beynəlxalq səviyyədə də qeyd olunur. Demokratik və iqtisadi islahatların vəhdətliyi fonunda Azərbaycanın uğurlarının davamlılığı ölkəmizdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinə böyük imkanlar açır. Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində atılan addımlar davamlılığı ilə diqqət çəkir. Sual olunur: demokratiyanı strateji kursunun əsas mahiyyəti kimi qəbul edib, həyata keçirdiyi islahatlarla bu yola sadiqliyini təsdiqləyən bir ölkəni insan hüquqlarını kobud şəkildə pozmaqda, vətəndaşlarına laqeyd yanaşmaqda ittiham etmək nə dərəcədə realdır və ədalətə uyğundurmu? Konstitusiyanın "Dövlətin ali məqsədi" maddəsində qeyd olunur ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Cənab İlham Əliyev hər bir çıxışında bildirir ki, həyata keçirilən siyasətin önündə vətəndaş amili dayanır. Sosial-iqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında özünü təsdiqləməlidir.

Təbii ki, Azərbaycanın uğurlarını qəbul etməyən daxili və xarici bədxahlarımız inkar yolunu tutacaq. Ölkədə ictimai-siyasi sabitliyi pozmaq, xalq-hakimiyyət qarşıdurması yaratmaq üçün müxtəlif ssenarilər cızmaq barədə düşünəcəklər. Daxili bədxahlarımızın xarici antiazərbaycan qüvvələrin əlində bir vasitə rolunu oynaması bu gün onların tabeliklərində olan mətbu orqanların səhifələrində Nardaran hadisəsi ilə bağlı dərc etdikləri yazılardan da aydın görünür. Unutmaq lazım deyil ki, ədalət ən böyük meyardır. Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bildirir ki, bu hücumların səbəbləri heç də insan hüquqları, demokratiya, xüsusən də geopolitik məsələlərlə bağlı deyil. Bu iddialar Azərbaycanı sevməyən, onu gözdən salmağa çalışan maraqlı qüvvələr tərəfindən təşkil olunur.

Bu reallıq inkaredilməzdir ki, düzgün qurulan siyasətin nəticəsi olaraq uğurlarımız bir-birini əvəzləməkdə, dünyanın ölkəmizə diqqət və marağı daha da artmaqdadır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası yeni hədəflərə nail olmaq üçün əsas sənəddir. Sənədin müddəalarında demokratik inkişafın davamlılığını təmin edən bütün zəruri addımlar da öz əksini tapıb. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından sonra "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın təsdiqlənməsi bir daha Prezident İlham Əliyevin iqtisadi potensialın insan kapitalına çevrilməsi tövsiyəsinə uyğun həyata keçirilən islahatların davamlı olmasının göstəricisidir. İnkişaf Konsepsiyasında bölgənin lider dövləti olan Azərbaycanın qarşıdakı illərdə iqtisadi inkişafını müəyyənləşdirən amillər, təbii resurslardan istifadə, qeyri-neft sektorunun inkişafı, sahibkarlığın gücləndirilməsi kimi vəzifələr göstərilirsə, Milli Fəaliyyət Planında bu möhtəşəm quruculuq işlərinin aparıcı qüvvəsi olan insan amilinə diqqət və qayğı, hüquqlarının müdafiəsi üçün prioritetlər müəyyənləşdirilib. Bir sözlə, kompleks tədbirlər qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağa əsas yaradır.

Yeganə Əliyeva,
"İki sahil"